# Mədəni xidmət yüksəlir



**Tovuz rayon mərkəzləşdirilmiş kitabxana sisteminin direktoru Şərqiyyə Əhmədova ilə iş yerində görüşdük.**

Qarşıda duran vəzifələrdən, kollektivin fəaliyyətindən, qazandığı uğurlardan, qarşılaşdığı problemlərdən danışdı:

- Azərbaycan Dövlət Universitetinin (BDU) kitabxanaçılıq fakültəsini bitirmişəm. Əvvəllər Qazax rayonunun Ceyrançöl kənd kitabxanasının müdiri, Ağstafa rayon Böyükkəsik qəsəbə mədəniyyət evinin direktoru, Tovuz rayon MKS-də xidmət şöbəsinin müdiri və direktor müavini vəzifələrində çalışmışam. 1989-cu ildən MKS-in direktoruyam.

Sistem özündə 77 kitabxananı, o cümlədən 1 mərkəzi, 1 uşaq, 1 şəhər və 72 kənd kitabxanasını birləşdirir. Burada 112 nəfər çalışır. Əməkdaşlarımızın 14-ü ali, 48-i orta ixtisas, 50-i isə orta təhsillidir.

Kitab fondumuz 666102 nüsxədir. 48 min nəfərdən artıq oxucumuz var. Kitabxanalarımızın latın qrafikalı ədəbiyyatla zənginləşməsinə və lüzumsuz ədəbiyyatların silinməsinə xüsusi fikir veririk.

Oxuculara mədəni xidmətin yüksəldilməsi də diqqət mərkəzindədir. Şair və yazıçılarımızın yubiley gecələrinin təşkili, tarixi-əlamətdar günlərin tələblərə uyğun şəkildə qeyd edilməsi işində Düz Qırıxlı (Qurban Nağıyev), Əlimərdanlı (Səlmi Məmmədəliyeva), Aşağı Öysüzlü (İradə Hüseynova), Qovlar (Əsmayə Ələkbərova), Cəlilli (Məhmarə Tağıyeva) və başqa kitabxanalarımızın fəaliyyəti razılıq doğurur.

Tovuz

● **Aygün QOCAYEVA**